Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# Söz azadlığından sui-istifadə ilə mübarizənin qanunvericilik və praktik əsasları...

**Günümüzün reallıqlarından biri sosial medianın və sosial şəbəkələrin inkişafıdır ki, əksər insalar düzgünlüyünü, qərəzsizliyini yoxlamadan o subyektlərdən informasiya almağa maraq göstərir. Amma informasiyanın səhihliyinə diqqət yetirənlər isə ənənəvi mediaya istinad etməyi sevirlər. Burada incə bir məqam var və çoxları onun fəqrinə varmaq istəmir.**



Söhbət söz, məlumat, fikir azdalığının kreteriyalarının pozulmasından gedir ki, bunu da daha çox sosial media, sosial şəbəkələr edirlər.

Bu gün sosial mediada, sosial şəbəkələrdə, xüsusən də "Tik-Tok" və başqa sosial şəbəkələrdə bir sıra hallarda elə informasiyalar, elə fikirlər yayılır ki, onlar birabaşa söz azadlığına və dövlətin təhlükəsizliyinə ziyan vurur. Söz azadlığından sui-istifadə edən qüvvələr sosial şəbəkələrdə yanlış informasiyalar yayırlar və bununla insanlara təsir etməyə çalışırlar. Söz azadlığından öz mənfəəti üçün istifadə edən siyasi, dini qruplar var ki, onlar informasiya cəbhəsinə zərbə vururlar. Bir çoxları da bunu bilərəkdən edirlər.

### Söz azadlığından sui-istifadə edənlər...

Söz azadlığından sui-istifadə ilə mübarizənin qanunvericilik və praktik əsasları barədə nə demək olar?

Ekspertlər deyir ki, buna yol verənlər peşəkar media təmsilçiləri deyil, sıradan insanlardır ki, onlar bu cür davranırlar. Bu gün sosial şəbəkələr, video paylaşım platformaları, habelə bloqerlik fəaliyyəti ilə məşğul olanların fəaliyyətində daha çox bu nöqsanları görürük. Ekspertlər hesab edirlər ki, qardaş Türkiyədə olduğu kimi bizdə də Sosial media haqda ayrıca qanun olmalıdır. Ekspertlərə görə, sosial medianı ənənəvi medaiadan fəqrləndirmək üçün onun ayrıca qanunvericiliyi olmalıdır. Çünki media ilə bağlı mövcud qanunvericiliklə sosial medianı tənzimləmək olmur. Sosial media, sosial şəbəkələr, xüsusən də "Tik-Tok" və başqa sosial şəbəkələr, platformalar tənzimlənməlidir. Hər bloger durub söz azadlığına zidd bir fikir bildirirsə, burada sosial medianın vəziyyətini görmək olur.

### "Söz azadlığından sui-istifadə edənlər bilirlər ki..."

"Noveoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev "Bakı-Xəbər"ə "çox təəssüflər olsun ki, sosial media, "Tik-Tok" kimi sosial şəbəkə platformaları təsdiq olunan və olunmayan, dövlət maraqlarına zidd olub olmadığının fərqinə varmadan məlumatlar yayırlar. Bəzən populyarlıq xatirinə, bəzən düşünülmüş şəkildə dövlət və milli maraqlara, söz və fikir azadlıqlarına zidd xəbərlər yayırlar, tirajlayırlar. Həm dünyada, həm də Azərbaycanda sosial şəbəkə istifadəçilərinin çoxunun səviyyəsi çox aşağıdır. Söz azadlığından sui-istifadə edənlər bilirlər ki, sadə vətəndaşlar sosial şəbəkələrdən çox istifadə edirlər, burada oxuduqlarına yalan informasiya da olsa inanırlar. Təbii ki, Azərbaycanı istəməyən qüvvələr, bizə düşmən münasibət bəsləyən dövlətlər var ki, o sosial şəbəkələrdən qarşı istifadə edirlər. Öz trolları vasitəsilə milli maraqlarımızı zərbə altına alan xəbərlər yayırlar"-deyə bildirdi.

### "Sosial mediaya ciddi nəzarət üçün mütləq qanunvericilik olmalıdır..."

Ş.Ağayev hesab edir ki, əksər hallarda sosial şəbəkələr bu cür insanların təbliğat vasitəsinə çevirilir, əksər hallarda da bizim maraqlarımıza xidmət etmir. Ş.Ağayev vurğuladı ki, bu kimi hallarla mübarizə aparmaq çətindir və bu sahədə qanunvericilik olmalıdır. "Sosial mediaya ciddi nəzarət üçün mütləq qanunvericilik olmalıdır ki, onun tələblərinə uyğun olaraq bu sahədə mübarizə tədbirləri aparılsın. Maarifçilik işləri də gücləndirilməlidir. Sosial şəbəkələrdə bəzən elə məlumatlar yayılır ki, onda hüquq-mühafizə orqanları həmin istifadəçiləri dəvət edisrlər, onlarla söhbət edirlər, onlar arasında cərimələnənlər də olur. Amma ümumi götürdükdə sosial şəbəkələrə nəzarət yoxdur. Sosial şəbəkələrin çoxu əsasən Amerikadan idarə olunur, "Tik-Tok"u Çindən idarə edirlər. Bu baxımdan nəzarət sarıdan çətinlik yaranır. Düşünürəm ki, bunu qanunvericililə tənzimləmək, qanunvericilikdəki boşluqıları aradan qaldırmaq olar".

Ş.Ağayev hesab edir ki, daha çox vətəndaşlarımızın fəaliyyətinə diqqət yetirilməlidir. Onların dövlət maraqlarına zidd adımlar atamasına qarşı tədbirlər görülməlidir. O, qeyd edir ki, mübarizə tədbirləri gücləndirilməlidir: "Doğrudur, mübarizə başlayan, yaxud bu sahədə qanunvericilik hazırlanan kimi "söz azadlığı", "məlumat azadlığı", "sosial şəbəkə azadlığı" "boğulur" deyə haray çəkəcəklər. Halbuki sosial mediada, sosial şəbəkələrdə yazdıqlarında söz azadlığının tələblərini gözləməyiblər. Düşünürəm ki, söz və məlumat azadlığından aşırı istifadə etmək mənfi təsirə malikdir. Bu da qanunvericilikdəki boşluqları doldurmaqla, ya da ayrıca qanun qəbul etməklə həll edilə bilər. Qardaş Türkiyədə "Sosial media Haqqında" qanun qəbul edilib. Bu ölkənin təhlükəsizliyi baxımından da çox əhəmiyyətlidir. Bu sahədə ciddi problemlər mövcuddur və bu mütləq mənada aradan qaldırılmalıdır. Sosial medai o demək deyil ki, insanlar özlərində məsuliyyət hiss etməməlidir. Bu da məsuliyyət yaratmalıdır" - deyə Ş.Ağayev bildirdi.

Azərbaycanda "Media Haqqında" qanun qəbul olunub və bu gün onun mövcudluğu ənənəvi və onlayn medianın fəaliyyətini tənzimləyir. Deyərdik ki, qanunun qəbul edilməsindən sonra bu sahədə olan problemlər sıradan çıxır. Sosial media barədə də ayrıca qanunun qəbul edilməsi zərirətə çevirilib. Çünki bu qanun olmadan prosesi tənzmləmək çətin ola bilər...

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**